


Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

Qəzet 1921-ci ildən çıxır

# Şərq qapısı

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 234 (21.895)

9 dekabr 2017-ci il, şənbə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


*Rəsmi xronika*

Dekabrın 8-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Sudan Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Abbas Mustafa Əhməd Abdallayın etimadnaməsini qəbul edib.

Dövlətimizin başçısı ölkələrimiz arasında münasibətlərin çox yaxşı səviyyədə olduğunu qeyd edərək əlaqələrimizin daha da genişləndirilməsi üçün yaxşı imkanların olduğunu deyib. Prezident İlham Əliyev qeyd edib ki, ölkələrimiz beynəlxalq təşkilatlar çərçivəsində, o cümlədən BMT-də və İslam Əməkdaşlıq Təşkilatında fəal əməkdaşlıq həyata keçirir.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə toxunan səfir Abbas Mustafa Əhməd Abdallay bildirib ki, bu məsələ ilə bağlı Sudan Respublikasının mövqeyi dəyişməzdir və dəyişməz olaraq qalacaqdır. Azərbaycanın işğal altındakı bütün torpaqları azad olunmalı və ərazi bütövlüyü bərpa edilməlidir.

Səfir Abbas Mustafa Əhməd Abdallay ölkəsinin Azərbaycanla iqtisadi, mədəni və digər sahələrdə əməkdaşlığın daha da genişləndirilməsində maraqlı olduğunu deyib.

Prezident İlham Əliyev Sudan Respublikasının Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsində tutduğu ədalətli mövqeyə görə təşəkkürünü bildirib.



## Sərhəd kəndi Gərməçataqda müasir infrastruktur yaradılıb

İnsanların rahat yaşayışı və məskunlaşması dövlətimizin həyata keçirdiyi sosial siyasətin əsas istiqamətlərindəndir. Muxtar respublikada bu amil diqqətdə saxlanılır, inkişaf kənddən şəhərə doğru aparılır. Kəndlərdə geniş quruculuq işləri görülür, rahat yollar çəkilir, müasir məktəb binaları və sosial obyektlər istifadəyə verilir, sakinlərin rifahının yüksəldilməsinə xüsusi diqqət yetirilir. Bütün bunlar isə ölkəmizin inkişafının, vətəndaşlara göstərilən qayğının daha bir ifadəsidir. Bu il Babək rayonunun sərhəd yaşayış məntəqəsi olan Gərməçataq kəndində də geniş quruculuq işləri aparılmışdır.

## Gərməçataq kənd tam orta məktəbinin yeni binası istifadəyə verilib





Dekabrın 8-də Gərməçataq kənd tam orta məktəbinin yeni binasının açılışı olmuşdur.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov açılışı bildirən lenti kəsmişdir.

Məlumat verilmişdir ki, məktəb binasında ən müasir tədris infrastrukturu yaradılıb. 2-si elektron lövhəli olmaqla, 10 sinif otağında, kimya-biologiya laboratoriyasında, hərbi kabinədə, şahmat sinfində və kompüter otağında yeni tədris avadanlıqları müəllim və şagirdlərin istifadəsinə verilib, kitabxana fondu zənginləşdirilib.

Kitabxanada 1400-dən artıq bədii ədəbiyyat və dərslik vardır. Məktəbdə şagirdlərin mütaliəyə marağının artırılması üçün tədbirlər görülmüş, oxunması zəruri olan kitablardan ibarət guşə yaradılmışdır. Kompüter otağında isə sürətli internetə çıxışı olan kompüterlər şagirdlərin istifadəsinə verilmişdir. Məktəbdə elektron dərsliklərdən istifadə də diqqətdə saxlanılır.



Müəllimlər otağında pedaqoji kollektivlə görüşən Ali Məclisin Sədri onları yeni məktəb binasının istifadəyə verilməsi münasibətilə təbrik edərək demişdir: Bu gün dövlətimiz sərhəd kəndlərinin inkişafını diqqətdə saxlayır. Gərməçataq kəndi də muxtar respublikanın əhəmiyyətli sərhəd yaşayış məntəqəsidir. Ona görə də kəndin müdafiəsinin etibarlı təşkilinə və əhalinin rahat yaşayışına diqqət yetirilir. Kənddə ayrıca inzibati ərazi dairəsi üzrə nümayəndəlik yaradılmış, dövlət qurumlarının fəaliyyəti təmin olunmuş, məktəb binası yenidən qurulmuşdur. Bütün bunlar dövlətimizin iqtisadi qüdrətinin və ölkə vətəndaşlarına göstərilən qayğının daha bir ifadəsidir. Yaradılan şərait kənddə insanların məskunlaşmasına və məktəbin nailiyyətlərinin artmasına imkan verəcəkdir.

Məktəbin müəllimi Xeyrənsə İsmayılova minnətdarlıq edərək demişdir: Gərməçataq ucqar sərhəd kəndidir. Lakin kənd məktəbində yaradılan şərait şəhər məktəbləri ilə heç nə ilə fərqlənmir. Məktəbdə elektron lövhəli siniflər, kompüter otağı, laboratoriya istifadəyə verilmiş, tədris ən müasir tələblər səviyyəsində qurulmuşdur. Bunu təhsilə göstərilən diqqət və qayğının nəticəsi kimi dəyərləndiririk. Dövlətin yaratdığı bu şərait müəllimlərin qarşısında mühüm vəzifələr qoyur. Əmin edirik ki, etimadı yüksək bilikli, vətənpərvər və peşə sahibi olan gənclər yetişdirməklə doğruldacağıq.

Ali Məclisin Sədri elektron lövhəli sinifdə muxtar respublikanın 222 təhsil müəssisəsi ilə Naxçıvan Dövlət Xalça Muzeyi arasında keçirilən distant dərsi izləmiş, yeni tədris metodlarından istifadə ilə bağlı tapşırıqlar vermişdir.

## Gərməçataq Kənd Mərkəzinin açılışı olub

Dekabrın 8-də Gərməçataqda kənd mərkəzi istifadəyə verilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov açılışı bildirən lenti kəsmişdir.

Zəruri inzibati, sosial və mədəni sahələri özündə birləşdirən kənd mərkəzi, ilk növbədə, sakinlərin rahatlığına xidmət edəcək, onların hər hansı bir iş üçün rayon mərkəzlərinə getməsinin və vaxt itkisinin qarşısını alacaqdır. Müasir standartlara uyğun inşa edilən bina iki mərtəbədən ibarətdir. Burada 7 mindən artıq kitab fondu olan kitabxana, polis sahə, baytarlıq və feldşer-mama məntəqələri, rabitə evi vardır. Rabitə evində 192 nömrəlik yeni nəsil Avtomat Telefon Stansiyası quraşdırılmış, poçt bölməsi yaradılmış, sürətli internetdən istifadə təmin edilmişdir.

Binanın ikinci mərtəbəsində inzibati ərazi dairəsi üzrə nümayəndəliyin, bələdiyyənin, Yeni Azərbaycan Partiyası ərazi ilk təşkilatının, klubun fəaliyyəti üçün lazımi şərait yaradılmış,

Ardı 2-ci səhifədə





statistika otağı və 32 yerlik tədbirlər zalı istifadəyə verilmişdir.

Feldşer-mama məntəqəsi kənddə səhiyyə işinin nümunəvi təşkilinə imkan verəcəkdir. Bu, eyni zamanda dövlətimizin insan sağlamlığına, səhiyyənin inkişafına verdiyi önəmin ifadəsidir. Binada məntəqə üçün 4 otaq ayrılmış, dərman vasitələri və peyvənd cantaları qoyulmuşdur.

Ali Məclisin Sədri kənd mərkəzində yerləşən təşkilatların fəaliyyəti ilə maraqlanmış, müvafiq tapşırıq və tövsiyələrini vermişdir.

## Dağ kəndində yeni xidmət obyekti fəaliyyətə başlamışdır






Dekabrın 8-də Gərməçataq kəndində xidmət mərkəzi də istifadəyə verilmişdir.

Ali Məclisin Sədri açılışı bildirən lenti kəsmişdir.

Bildirilmişdir ki, mərkəzdə bərbərxana, mağaza və anbar fəaliyyət göstərir. Burada 2 sakin işlə təmin olunub. Mağazada yerli məhsulların satışı kənd turizminə üstünlük verənlərin keyfiyyətli məhsullarla təminatına imkan verəcəkdir.

Ali Məclisin Sədri mərkəzlə tanışlıqdan sonra sakinlərlə görüşmüş, onları kənddə aparılan quruculuq işləri münasibətilə təbrik edərək demişdir: Bu gün Gərməçataq muxtar respublikanın abad yaşayış məntəqələrinin sırasına daxil oldu. Kənddə məktəb binası, kənd və xidmət mərkəzləri istifadəyə verildi, dövlət qurumlarının fəaliyyəti üçün hərtərəfli şərait yaradıldı. Bu gün sərhəd kəndi Gərməçataq etibarlı müdafiə olunur. Kəndin bundan sonrakı inkişafı sakinlərin üzərinə düşən vəzifədir. Düşmən ölkənin muxtar respublika ilə sərhəd kəndlərində isə məktəblər bağlanır, yaşayış üçün heç bir infrastruktur yaradılmır. Lakin Azərbaycan dövləti kəndlərin, xüsusilə sərhəd yaşayış məntəqələrinin inkişafına xüsusi diqqət yetirir. Gərməçataq kəndində yaradılan şərait bunu bir daha təsdiq edir. Ona görə də sakinlər muxtar respublikanın bu abad və səfalı kəndində məskunlaşmanı artırmalı, kəndin inkişafına öz töhfələrini verməlidirlər.

Ali Məclisin Sədri sərhəd kəndini tərk etməyib burada məskunlaşdıqlarına görə sakinlərə təşəkkür etmişdir.

Kənd sakini Vilayət Babayev minnətdarlıq edərək deyib ki, muxtar respublikada aparılan quruculuq işləri Gərməçataq kəndini də əhatə edib. Hələ 20 il bundan əvvəl kənddə nasos stansiyaları tikilib, torpaqlardan səmərəli istifadə üçün hərtərəfli şərait yaradılıb, kəndin etibarlı müdafiəsi təşkil olunub. Bu gün isə kəndimizdə yeni məktəb binası, kənd və xidmət mərkəzləri istifadəyə verildi. Tədrisin müasir səviyyədə aparılması üçün məktəb müasir avadanlıqlarla təchiz edilib. İstifadəyə verilən kənd mərkəzində təşkilatların əhaliyə yüksək səviyyədə xidmət göstərmələri üçün şərait yaradılıb. Kəndimizdə əhalinin gündəlik məişət tələbatının ödənilməsi üçün heç bir şərait olmadığından sakinlər qonşu kəndlərə və yaxud Naxçıvan şəhərinə getməli olurdular. Artıq bu məsələ də həllini tapıb. Xidmət mərkəzi əhalinin zəruri ehtiyaclarını ödəyəcəkdir. Kəndin yolu da yenidən qurulmuşdur. Dağ və sərhəd kəndində yaşayırıq. Lakin kəndimiz fasiləsiz elektrik enerjisi, təbii qaz, müasir rabitə xidməti və sürətli internetlə təmin edilib. Yaradılmış şəraitin nəticəsidir ki, vaxtilə kəndimizi tərk etmiş 4 ailə geri qayıdaraq Gərməçataqda məskunlaşıb. Bir sözlə, bu gün müasir Gərməçataq kəndi düşmənə gözdağıdır. Bütün bu firavanlıq, abadlıq və sabitlik isə kənd sakinlərinin torpağa, yurd yerinə bağlılığını daha da artırır.

* * *

Gərməçataq kəndinin avtomobil yolu da yenidən qurulmuşdur. 5700 metrlik yol hamarlanaraq qum-çınqıl qatı verilmiş, 20 su keçidi qoyulmuş, 1 körpü tikilmişdir. Həmçinin yolun kənarında 1038 metrlik beton kanal çəkilmişdir. Kəndin rabitə, elektrik və qaz təsərrüfatı da yenidən qurularaq qış mövsümünə hazır vəziyyətə gətirilmişdir. Belə ki, tikinti işləri aparılarkən yeni rabitə dirəkləri basdırılmış, 700 metr fiber-optik kabel, 400 metri yeraltı olmaqla 1200 metr rabitə, 735 metrlik elektrik və 160 metrlik qaz xətti çəkilmişdir.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

## Naxçıvanın sərhəd yaşayış məntəqələrində etibarlı müdafiə sistemi yaradılıb





Ümummilli liderimiz Heydər Əliyev tərəfindən Naxçıvanda əsası qoyulan milli ordu quruculuğu prosesi bu gün Azərbaycanda uğurla davam etdirilir. Ölkə Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə ordumuz inkişaf edərək müstəqilliyimizin təminatçısına çevrilib. Naxçıvan Muxtar Respublikasının müdafiəsi də etibarlı təşkil olunub, dövlət-ordu-xalq birliyinin möhkəm təməli yaradılıb. Dövlətin və xalqın dəstəyini üzərində hiss edən şəxsi heyətin döyüş ruhu isə gündən-günə artır, sərhəd yaşayış məntəqələrimiz etibarlı müdafiə olunur.

Dekabrın 8-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Babək rayonunun Gərməçataq kəndindəki hərbi hissənin əhatə etdiyi postda olmuşdur.

Əsgər və zabitlərlə görüşən Ali Məclisin Sədri demişdir: Xidmətin nümunəvi təşkili bu ərazidə insanların rahat yaşayışını təmin edir. Vaxtilə bu ərazidə post yox idi. Lakin ölkəmiz inkişaf etdikcə ordumuz da qüdrətləndi, əsgər və zabitlər üçün hərtərəfli xidmət və yaşayış şəraiti yaradıldı. Bu sərhəd bölgəsində də yeni postlar yaradıldı, yol çəkildi, xidmət nümunəvi təşkil olundu.

Ali Məclisin Sədri sərhədlərimizi etibarlı müdafiə etdiklərinə görə şəxsi heyətə təşəkkür etmiş, xidmətdə fərqlənənlərə hədiyyələr vermişdir.

*Ardı 3-cü səhifədə*





Əsgər Şükür Hüseynov minnətdarlıq edərək demişdir: Göstərilən diqqət və qayğının nəticəsidir ki, ucqar sərhəd bölgəsində hərbi xidmət nümunəvi təşkil olunub. Xidmətimiz üçün yaradılan şərait və şəxsi heyətlə bu cür görüşlərin keçirilməsi mübarizə əzmimizi daha da artırır. Biz burada bir ailə kimi yaşayır, xidməti qarşılıqlı hörmət və hərbi nizamnamənin tələblərinə uyğun qururuq. Şəxsi heyət “Bir nəfər hamı üçün, hamı bir nəfər üçün” prinsipinə əməl edir.

Sonra Ali Məclisin Sədri təmas xəttində xidmətin təşkili ilə maraqlanmışdır.

Əlahiddə Ümumqoşun Ordu komandanı, general-leytenant Kərəm Mustafayev müdafiənin ön xəttində xidmətin təşkili haqqında məlumat vermişdir. Qeyd olunmuşdur ki, ərazidə əlverişli hücum mövqeyi seçilmiş və möhkəm müdafiə potensialı yaradılmış, postlar müasir silah və texnika ilə təmin olunmuş, yeni səngər və əlaqə yolları çəkilərək əlverişsiz hava şəraitinə uyğunlaşdırılmışdır. Postlar arasında dayanıqlı rabitə əlaqəsi və rahat gediş-gəliş təmin edilmişdir.

Həmin gün Ali Məclisin Sədri Gərməçataq kəndində yerləşən dayaq məntəqəsində də olmuş, şəxsi heyətlə görüşmüşdür.

Əsgərləri salamlayan Ali Məclisin Sədri demişdir: Bu gün ölkəmizdə ordu quruculuğu sahəsində həyata keçirilən tədbirlər ordumuzun maddi-texniki bazasının möhkəmləndirilməsinə və müasir silah-sursatla təminatına imkan verir. Vaxtilə bu ərazidə



hərbi xidmət ağır şəraitdə həyata keçirilirdi. Lakin bu gün dayaq məntəqəsində və onun əhatə etdiyi postlarda nümunəvi xidmət şəraiti yaradılıb.

Ali Məclis Sədri demişdir: Bu ərazidə yerləşən yaşayış məntəqələrində insanların rahat yaşayışının təmin olunması şəxsi heyətin xidmətinin təşkilindən asılıdır. Çünki ölkənin sərhədlərinin etibarlı qorunması vətəndaşların rahat yaşayışına və quruculuq işlərinin aparılmasına xidmət edir. Gərməçataq kəndində aparılan geniş quruculuq işləri və yaradılan müasir kənd infrastrukturu ona görə mümkün olmuşdur ki, Azərbaycan əsgəri öz üzərinə düşən vəzifəni layiqincə yerinə yetirir, torpaqlarımız etibarlı müdafiə olunur.

Ali Məclisin Sədri xidməti vəzifələrini uğurla yerinə yetirdiklərinə görə şəxsi heyətə təşəkkür etmiş, xidmətdə fərqlənən hərbi qulluqçuları qiymətli hədiyyələrlə mükafatlandırmışdır.

Əsgər Abbas Cabbarlı şəxsi heyət adından minnətdarlıq edərək demişdir: Dağ və sərhəd yaşayış məntəqəsində hərbi xidməti nümunəvi təşkil etmək üçün hər cür şərait yaradılıb. Müasir yaşayış və xidmət şəraiti hər bir əsgər və zabitin döyüş ruhunu daha da artırır. Fəxr edirik ki, Vətənimiz Azərbaycanın ayrılmaz tərkib hissəsi olan doğma Naxçıvanımızın müdafiəsində dayanmışıq. Yüksək döyüş ruhumuz vardır. Vətən sərhədində ayıq-sayıq dayanmışıq. Düşmənin istənilən təxribatının qarşısını almağa hazırıq.

Əsgərlər şəxsi heyət arasındakı birlik və bərabərliyin ifadəsi olan “Bir nəfər hamı, hamı bir nəfər üçün” şüarını səsləndirmişlər.

Ali Məclisin Sədri əsgərlərin məişət şəraiti ilə maraqlanmışdır.

Məlumat verilmişdir ki, yüksək dağlıq şəraitdə yerləşən hərbi hissənin maddi-texniki təminatı, əsgərlərin məişət və xidməti şəraiti müasir tələblər səviyyəsində qurulub. Günün nizam qaydalarına uyğun olaraq xidmətin təşkilinə, əsgərlərin normal qidalanması, fiziki hazırlığına və sağlamlıqlarının qorunmasına diqqət yetirilir.

Ali Məclisin Sədri müdafiə mövqeyinin möhkəmləndirilməsi və xidməti döyüş fəaliyyətinin təşkili barədə müvafiq tapşırıqlar vermişdir.

Gətirilmiş müxtəlif ərzaq məhsulları və şirniyyatlar hərbi hissənin anbarına təhvil verilmişdir.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisinin mətbuat xidməti**

*10 dekabr Beynəlxalq İnsan Hüquqları Günüdür*

# Ölkəmizdə insan hüquqları etibarlı müdafiə olunur

***1948-ci il dekabrın 10-da Birləşmiş Millətlər Təşkilatı Baş Məclisi İnsan hüquqları haqqında Ümumi Bəyannamə qəbul etmişdir. Həmin tarixdən etibarən hər il dekabrın 10-u bütün dünyada “İnsan Hüquqları Günü” kimi qeyd olunur.***

Ötən əsrin sonlarında dövlət müstəqilliyini yenidən bərpa edən Azərbaycan Respublikası demokratik, hüquqi və dünyəvi dövlət quruculuğu yolunu seçmiş, Birləşmiş Millətlər Təşkilatının İnsan hüquqları haqqında Ümumi Bəyannaməsinə və digər beynəlxalq konvensiyalara qoşulmuşdur. Ümummilli lider Heydər Əliyevin rəhbərliyi ilə hazırlanaraq 1995-ci il noyabrın 12-də ümumxalq səsverməsi ilə qəbul edilmiş Azərbaycan Respublikasının Konstitusiyası ölkəmizdə əsas insan hüquq və azadlıqlarına əsaslanan yeni dövlət quruculuğunun əsasını qoymuş, hüquq islahatlarının keyfiyyətcə yeni mərhələsinin başlanmasına təkan vermiş, mühüm normativ-hüquqi aktlar və dövlət proqramları qəbul edilmiş, insan hüquqlarının təminatı sahəsində həyata keçirilən tədbirlərin mahiyyəti və konsepsiyası dəqiq müəyyənləşdirilmişdir.

Ümummilli lider Heydər Əliyev tərəfindən imzalanan “İnsan və vətəndaş hüquq və azadlıqlarının təmin edilməsi sahəsində tədbirlər haqqında” 1998-ci il 22 fevral tarixli Fərman və “İnsan hüquqlarının müdafiəsinə dair Dövlət Proqramının təsdiq edilməsi haqqında” 1998-ci il 18 iyun tarixli Sərəncam ölkəmizdə bu sahədə həyata keçirilən tədbirlərin mahiyyətini və konsepsiyasını dəqiq müəyyənləşdirməklə insan hüquqlarının davamlı inkişafını təmin etmişdir. Qeyd etmək lazımdır ki, Azərbaycan Şərqdə ilk dəfə olaraq ölüm cəzasını ləğv edən ölkə kimi tarixə düşmüşdür. Yüksək humanizmin və insanpərvərliyin bariz ifadəsinə çevrilən bu addım Azərbaycanın beynəlxalq nüfuzunu daha da yüksəltmişdir.

Azərbaycan Respublikası 1996-2000-ci illərdə insan hüquq və azadlıqlarının, demokratik təsisatların təminatı ilə bağlı mühüm beynəlxalq konvensiyalara, sazişlərə qoşulmuş, 2001-ci ildə “İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında” Avropa Konvensiyasını ratifikasiya etmişdir. Avropa Şurasının bu mühüm sənədinə münasibət bildirməklə Azərbaycan mötəbər beynəlxalq təşkilatla sıx əməkdaşlığa hazır olduğunu və insan hüquqlarının qorunması sahəsində öz üzərinə götürdüyü öhdəliklərə sadiqliyini bir daha bəyan etmişdir.

Bu gün Azərbaycanda hüquqi dövlət quruculuğu və insan hüquqlarının müdafiəsi sahəsində səylərin gücləndirilməsi dövlət siyasətinin əsas istiqamətlərindən biri kimi müəyyən edilmişdir. Ulu öndər Heydər Əliyevin siyasi xəttini uğurla davam etdirən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə ötən müddətdə ölkəmizdə insan hüquq və azadlıqlarının qorunması sahəsində kompleks tədbirlər həyata keçirilmişdir. İnsan hüquqlarının qorunmasını və bu sahədə görülən tədbirlərin genişləndirilməsini daim diqqət mərkəzində saxlayan ölkə başçısının “Azərbaycan Respublikasında insan hüquqlarının müdafiəsi üzrə Milli Fəaliyyət Planının təsdiq olunması haqqında” 2006-cı il 28 dekabr tarixli Sərəncamından irəli gələn vəzifələrin icrası ölkəmizdə insan hüquq və azadlıqlarının davamlı inkişafına zəmin yaratmışdır. Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 27 dekabr tarixli Sərəncamına əsasən isə “Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyini artırmaq sahəsində Milli Fəaliyyət Proqramı” təsdiq edilmişdir.

Naxçıvan Muxtar Respublikasında da insan hüquq və azadlıqları daim diqqət mərkəzində saxlanılır, muxtar respublikanın sosial-iqtisadi və demokratik inkişafına uyğun olaraq hüquq institutlarının təkmilləşdirilməsinə, insan hüquqlarının müdafiəsi mexanizminin və ədalət mühakiməsinin səmərəliliyinin artırılmasına, əhalinin keyfiyyətli hüquqi yardımla təmin edilməsinə xüsusi diqqət yetirilir.

Ölkə başçısının “Naxçıvan Muxtar Respublikasında hüquq institutlarının inkişafı haqqında” 2006-cı il 2 noyabr tarixli Fərmanı muxtar respublikada hüquq-mühafizə orqanlarının fəaliyyəti üçün yeni mərhələnin başlanğıcını qoymuşdur. Belə ki, ötən dövr ərzində Naxçıvan Muxtar Respublikasında hüquq institutlarının inkişafı, hüquq-mühafizə orqanlarının və məhkəmələrin fəaliyyətinin müasir tələblər nəzərə alınmaqla təşkil olunması, eləcə də onların maddi-texniki bazasının daha da möhkəmləndirilməsi sahəsində mühüm işlər görülmüş, dövlət orqanlarının, o cümlədən məhkəmə orqanlarının müasir texniki avadanlıqlarla təchiz olunması, habelə onların fəaliyyətində yeni informasiya-kommunikasiya texnologiyalarının geniş tətbiqi istiqamətində bir sıra zəruri addımlar atılmışdır. Müvəkkil təsisatının fəaliyyəti təmin edilmiş, məhkumların hüquqlarının daha səmərəli müdafiəsi məqsədilə penitensiar xidmətin infrastrukturu təkmilləşdirilmiş, hər bir vətəndaşın öz konstitusion hüquq və qanunla qorunan mənafelərinin həyata keçirilməsi, o cümlədən əhalinin yüksəkkeyfiyyətli hüquqi yardımla təmin edilməsi məqsədilə vəkillik institutunun hüquqi statusu müəyyənləşdirilmiş və inkişaf etdirilmişdir.

Bu gün Naxçıvan Muxtar Respublikasında əhalinin müxtəlif sosial qruplarının – ahılların, uşaqların, fiziki qabiliyyəti məhdud şəxslərin, məhkumların və digər şəxslərin hüquqlarının müdafiəsi istiqamətində də mühüm işlər görülür. Muxtar respublikada sosial qayğıya ehtiyacı olan vətəndaşların, o cümlədən məhdud fiziki imkanlı şəxslərin sosial müdafiəsinin gücləndirilməsi, onların cəmiyyətə inteqrasiyası istiqamətində ardıcıl tədbirlər həyata keçirilir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2016-cı il 11 yanvar tarixli Sərəncamı ilə təsdiq edilmiş “2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında sağlamlıq imkanları məhdud uşaqların təhsili və reabilitasiyası üzrə Dövlət Proqramı”nın icrasına uyğun olaraq bu kateqoriyadan olan şəxslərin sosial təminatının yaxşılaşdırılması, onların minik avtomobilləri və texniki-bərpa vasitələri ilə təmin edilməsi, təhsil almaları, məşğulluq imkanlarının yüksəldilməsi, istedad və bacarıqlarının inkişaf etdirilməsi, habelə asudə vaxtlarının səmərəli təşkili üçün hərtərəfli şərait yaradılmışdır.

Muxtar Respublikada qadın hüquqlarının müdafiəsi, o cümlədən məşğulluğunun təmin olunması da diqqət mərkəzində saxlanılmış, onların fəaliyyəti üçün yaradılan şərait qadınların ictimai-siyasi və sosial-mədəni həyata daha fəal cəlb olunmasını şərtləndirməklə yanaşı, həm də öz potensiallarını səmərəli şəkildə reallaşdırmalarına yol açmışdır. Qadınların, o cümlədən sağlamlıq imkanları məhdud şəxslərin müəyyən peşələrə yiyələnməsi, həmçinin istedad və bacarıqlarının inkişaf etdirilməsi məqsədilə muxtar respublikadakı peşə məktəblərində kurslar təşkil edilir, xüsusi istedadları ilə seçilən, rəssamlıq, toxuculuq, el sənəti nümunələrini yaşatmağı özünə fəaliyyət sahəsi seçən və asudə vaxtını bu işlərə sərf edən qadınlara xüsusi diqqət göstərilir, onların əl işlərindən ibarət satış sərgiləri keçirilir. Belə tədbirlərin həyata keçirilməsi qadınların istedad və bacarıqlarının üzə çıxarılması, o cümlədən əmək hüquqlarının həyata keçirilməsi baxımından da mühüm əhəmiyyət kəsb edir.

Əhalinin sosial rifahının yaxşılaşdırılması sahəsində görülən işlərin tərkib hissəsi kimi məşğulluq probleminin həlli mühüm əhəmiyyət kəsb edir. Bu məqsədlə Naxçıvan

*Ardı 4-cü səhifədə*

Muxtar Respublikası Ali Məclisi Sədrinin “2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin məşğulluğunun artırılması üzrə Dövlət Proqramı”nın təsdiq edilməsi haqqında” 2016-cı il 11 yanvar tarixli Sərəncamı mühüm əhəmiyyətə malikdir. Artıq muxtar respublikada işaxtaranların səmərəli məşğulluğu üçün əlverişli şərait yaradılmış, işaxtaran vətəndaşların sosial müdafiəsinin gücləndirilməsi istiqamətində mühüm işlər görülmüşdür. Bu gün muxtar respublikada həyata keçirilən davamlı sosial-iqtisadi islahatların, o cümlədən əhalinin məşğulluğunun, sosial yardımın ünvanlılığının təmin edilməsinin məntiqi nəticəsidir ki, sakinlərin sosial rifah halı daha da yaxşılaşmış, yoxsulluq səviyyəsi kəskin azalmışdır.

Muxtar respublikada məhkumların da hüquq və azadlıqlarının təmin olunması, saxlanma şəraitinin və gündəlik təminatının yaxşılaşdırılması, peşə vərdişlərinə yiyələnməsi üzrə keçirilən ardıcıl tədbirlərin davamı olaraq 2016-cı il fevralın 24-də Penitensiar Xidmətinin Qarışıq Rejimli Cəzaçəkmə Müəssisəsində yeni yaradıcılıq və istehsalat binası istifadəyə verilmiş, məhkumlara xalçaçılıq və misgərlik sənəti üzrə kurslar təşkil olunmuş, onların istehsalat sahəsində hazırladıqları əl işləri muxtar respublikada keçirilən müxtəlif sərgilərdə nümayiş etdirilmişdir.

Muxtar respublikada azad mətbuatın fəaliyyət göstərməsi, söz və fikir azadlığının təmin olunması, yaradıcı insanlar üçün hərtərəfli şəraitin yaradılması, bütün yaşayış məntəqələrində sürətli internetin istifadəyə verilməsi və insanların informasiyaya çıxış imkanlarının yaxşılaşdırılması da insan hüquqlarının və azadlıqlarının qorunması sahəsində həyata keçirilən tədbirlərin tərkib hissəsi kimi mühüm əhəmiyyət daşıyır.

*Muxtar respublikada Konstitusiyamızda təsbit edilmiş insan hüquq və azadlıqlarının daha etibarlı təmin edilməsi istiqamətində işlər daim diqqət mərkəzində saxlanılacaq, bu sahədə səmərəli hüquq mexanizmlərinin tətbiqi bundan sonra da davam etdiriləcəkdir.*

***Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) Aparatının mətbuat xidməti***

## Naxçıvanda Məhəmməd Peyğəmbərin mövludu günü qeyd edilmişdir

Ümummilli liderimiz Heydər Əliyev demişdir: ***“İslam dininin banisi həzrəti Məhəmməd Peyğəmbərin mövlud günü bizim böyük bayramımızdır”.***





Hicri təqvimi ilə Rəbbiul-əvvəl ayının 12-17-nə təsadüf edən Mövlud gecəsi həzrəti Məhəmməd Peyğəmbərin doğum günüdür. İslam dininin təşəkkül tapmasında və bütün dünyaya yayılmasında böyük xidmətləri olan, daim insanları mənəvi saflığa və yüksək əxlaqi dəyərlərə səsləyən Məhəmməd Peyğəmbərin mövlud günü İslamın əziz bayramı kimi bütün müsəlmanlar tərəfindən qeyd edilir.

İnsanları humanizm və bəşəri ideyalar ətrafında birləşdirən İslam dini tarixən xalqımızın dünyagörüşünün formalaşmasında və dini-mənəvi dəyərlərimizin inkişafında müstəsna rol oynamış, Azərbaycanda islami dəyərlərin qorunub yaşadılmasına xüsusi diqqət yetirilmişdir. Ümummilli liderimiz Heydər Əliyevin müəyyənləşdirdiyi dövlət-din münasibətləri bu gün ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir, mütərəqqi dini dəyərlər və ənənələr həmişə uca tutulur. Naxçıvan Muxtar Respublikasında da islami dəyərlər qorunub yaşadılır, yeni məscid binaları tikilərək istifadəyə verilir, dini mərasimlər keçirilir. İslamın digər bayramları kimi, Məhəmməd Peyğəmbərin mövludu günü də hər il muxtar respublikada qeyd olunur.

Dekabrın 8-də Naxçıvan şəhərindəki “Came” məscidində Məhəmməd Peyğəmbərin mövludu günü münasibətilə tədbir keçirilmişdir. Tədbirdə “Qurani-Kərim”dən ayələr oxunmuş, xalqımıza əmin-amanlıq, ölkəmizə sülh, inkişaf və tərəqqi arzulanmışdır.

✍ **Səbuhi HÜSEYNOV**

## Aztəminatlı ailələrin özünüməşğulluğu ilə bağlı tədbir keçirilib

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2016-cı il 11 yanvar tarixli Sərəncamı ilə təsdiq edilmiş “2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin məşğulluğunun artırılması üzrə Dövlət Proqramı”nın icrasına uyğun olaraq aztəminatlı ailələrin özünüməşğulluqlarının təmin edilməsi üçün müxtəlif sosial layihələr həyata keçirilir. Ailə əməyinə əsaslanan fərdi təsərrüfatların yaradılması istiqamətində həyata keçirilən tədbirlərin davamı olaraq Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin tapşırığı ilə uzun müddət ünvanlı dövlət sosial yardımı alan və fərdi təsərrüfatlarını qurmaq üçün müraciət edən ailələrə köməklik göstərilməsi nəzərdə tutulub.



Verilmiş tapşırığın icrası ilə əlaqədar müraciət edənlər içərisində Şərur, Babək, Ordubad, Culfa, Kəngərli və Sədərək rayonları üzrə, ümumilikdə, 16 aztəminatlı ailə müəyyənləşdirilib. Həmin ailələrdən 11-nə yanında balası olan iribuynuzlu mal-qara, 5-nə isə hər birinə 10 ədəd olmaqla, xırdabuynuzlu heyvan verilib.

Bununla əlaqədar keçirilən tədbirdə çıxış edən Naxçıvan Muxtar Respublikası əmək və əhalinin sosial müdafiəsi naziri Cavid Səfərov muxtar respublikada aztəminatlı ailələrə göstərilən dövlət qayğısı, onların sosial reabilitasiyası və məşğulluğunun təmin olunması istiqamətində həyata keçirilən tədbirlər barədə danışıb. Sonra aztəminatlı ailə təmsilçilərinə verilən mal-qara ilə bağlı sənədlər təqdim olunub.

Culfa rayon Camaldın kənd sakini Elgün Abdullayev göstərilən qayğıya görə minnətdarlığını bildirib, ailə təsərrüfatından səmərəli yararlanacaqlarını diqqətə çatdırıb.

Qeyd edək ki, bu il ərzində Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin tapşırığına əsasən 38 aztəminatlı ailəyə özünüməşğulluğunun təmin edilməsi üçün müvafiq köməklik göstərilib.

✍ **Nail ƏSGƏROV**

## Baba Nemətullah Naxçıvaninin irsi ilə bağlı tədqiqatlar aparılır

***“Qurani-Kərim”i təsəvvüf üslubunda şərh edən ilk alim kimi tarixə düşən Baba Nemətullah Naxçıvaninin irsinin öyrənilməsi ilə bağlı ilk addımlar atılıb.***

Məlumat verdiyimiz kimi ötən aylarda AMEA Naxçıvan Bölməsində təsəvvüf alimi Baba Nemətullah Naxçıvaninin həyat və yaradıcılığına həsr olunan tədbir keçirilib. Tədbirdə bölmənin sədri, akademik İsmayıl Hacıyev Tarix, Etnoqrafiya və Arxeologiya, İncəsənət, Dil və Ədəbiyyat institutlarının və Əlyazmalar Fondunun elmi əməkdaşlarına Türkiyə və İranın arxiv, muzey və kitabxanalarında sufi alimin irsi ilə bağlı tədqiqatlar aparılmasına dair tapşırıqlar verib.




Bu tapşırıqların nəticəsi olaraq AMEA Naxçıvan Bölməsinin İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun Ədəbiyyatşünaslıq şöbəsinin böyük elmi işçisi, filologiya üzrə fəlsəfə doktoru Nərgiz İsmayılova tərəfindən görkəmli alimin əsərləri əldə olunub. Hazırda Naxçıvaninin əsərləri üzərində geniş tədqiqatlar aparılır. Alimin əsərləri Azərbaycan dilinə tərcümə olunaraq ictimaiyyətə çatdırılacaq.

Qeyd edək ki, həyatının çoxunu Naxçıvanda keçirən alim İranda və Türkiyədə yaşayıb. O, təsəvvüf və təfsir sahəsində əsərlərini burada qələmə alıb. Türkiyənin Konya vilayətinin Ağşəhər qəsəbəsində qəbri ziyarət edilən Baba Nemətullah Naxçıvani qardaş ölkədə daim hörmət və ehtiramla anılan elm xadimlərimizdəndir. Təsadüfi deyil ki, 2013-cü il avqustun 23-də Konya valiliyinin təşəbbüsü ilə Ağşəhər bələdiyyəsi tərəfindən ayrılan ərazidə tikilən məktəbə Baba Nemətullah Naxçıvaninin adı verilib.

**Xəbərlər şöbəsi**

## Kənd məktəbində kitab müzakirəsi olub

***Ordubad rayonunun Aza kənd tam orta məktəbində Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun 2017-ci il avqustun 28-də imzaladığı Sərəncamla təsdiq olunmuş “Oxunması zəruri olan kitabların Siyahısı”na salınmış Eynəli bəy Sultanovun “Məqalələr” kitabının müzakirəsi olub.***

Tədbirdə çıxış edən Aza kənd tam orta məktəbinin direktoru Təvəkkül Məmmədov sərəncamın əhəmiyyətindən, bu istiqamətdə atılan addımlardan danışıb. Bildirib ki, siyahıda gənc nəslin dövlətçilik və vətənpərvərlik tərbiyəsinə, habelə şəxsiyyət kimi formalaşmasına daha çox təsir edə biləcək kitablara üstünlük verilib. Bunun müstəqil dövlətçilik ideallları üstündə köklənmiş kamil Azərbaycan vətəndaşlarının daha yetkin səviyyədə formalaşdırılmasına kömək etmək məqsədi daşıdığını vurğulayıb.

Sonra məktəbin Uşaq birliyinin rəhbəri Şirin Mirzəyeva Eynəli bəy Sultanovun “Məqalələr” kitabı haqqında tədbir iştirakçılarına ətraflı məlumat verib, məqalələrin ideya-bədii istiqamətlərindən danışıb. Qeyd olunub ki, qələmə aldığı məqalələrdə Eynəli bəy Sultanov hakim təbəqələrin özbaşınalığını, fanatizm və cəhaləti, qadın hüquqsuzluğunu tənqid atəşinə tutub. Dövrün eybəcərliklərinin ifşasında bütün təqiblərə sinə gərib, öz xalqının inkişafı və tərəqqisi üçün qələmin gücündən istifadə etməyə səy göstərib.

Sonra şagirdlər kitabda yer almış məqalələri bədii qiraət ediblər.

✍ **Gülcamal TAHİROVA**

## Şagirdlər arasında stolüstü tennis yarışı

Kəngərli rayon Qıvraq qəsəbə tam orta məktəbində rayon Gənclər və İdman İdarəsi ilə Təhsil Şöbəsinin təşkil etdiyi ümumtəhsil məktəblərinin şagirdləri arasında stolüstü tennis üzrə açıq birinciliyə yekun vurulub.



Məktəbli qızların bədən tərbiyəsi və idmana marağının daha da artırılması məqsədilə keçirilən birinciliyin açılış mərasimində çıxış edən Gənclər və İdman İdarəsinin rəisi Vüsal Hüseynov və Uşaq-gənclər idman məktəbinin direktoru vəzifəsini icra edən İbrahim Məmmədov müsabiqə iştirakçılarına uğurlar arzulayıblar.

16 idmançının iştirak etdiyi yarışın yekununda ilk üç pilləyə müvafiq olaraq Bəyim Nağıyeva, Mirvari Tağıyeva və Gülnar Niftəliyeva layiq görülüblər.

Sonda qaliblərə təşkilatçılar tərəfindən diplomlar təqdim edilib.

## Zəka sahibləri qüvvələrini sınayıblar

Sədərək Rayon Gənclər və İdman İdarəsi, Təhsil Şöbəsi və Uşaq-gənclər şahmat məktəbinin təşkilatçılığı ilə rayon ümumtəhsil müəssisələrinin şagirdləri arasında “Zərərli vərdişlərə yox deyək, həmişə sağlam olaq” devizi altında şahmat turniri keçirilib.



Tədbirdə çıxış edənlər yarış iştirakçılarına uğurlar arzulayıblar. Olimpiya sistemi üzrə keçirilən yarışda 48 oğlan və qız zəka sahibi iştirak edib.

Sonda oğlanlar arasında Sədərək kənd 1 nömrəli tam orta məktəbin şagirdləri Gökan Hüseynov, Onur Əsgərli və Hüseyn Hüseynov müvafiq olaraq ilk 3 pillədə qərarlaşıblar. Qızların mübarizəsində isə Sədərək kənd 2 nömrəli tam orta məktəbin şagirdi Sona Səfərova qalib adını qazanıb. Sədərək kənd 1 nömrəli tam orta məktəbin şagirdi Nurgül Qurbanova ikinci, Sədərək kənd 2 nömrəli tam orta məktəbin şagirdi Zeynəb Cəlilova üçüncü olublar.

## Voleybol birinciliyinə yekun vurulub

Şahbuz Rayon Gənclər və İdman İdarəsi, Təhsil Şöbəsi və Yeni Azərbaycan Partiyası Şahbuz Rayon Təşkilatının Gənclər Birliyinin təşkilatçılığı ilə “Zərərli vərdişlərə yox deyək, həmişə sağlam olaq” devizi altında rayonun ümumtəhsil məktəblərinin oğlan şagirdlərindən ibarət voleybol komandaları arasında rayon birinciliyi keçirilib. Yarışda 8 komanda Olimpiya sistemi üzrə mübarizə aparıb.

Yekunda bütün rəqiblərinə qalib gələn Kolanı kənd tam orta məktəbinin komandası qalib olub. Digər iki pillədə Külüs və Şahbuz şəhər 1 nömrəli tam orta məktəblərinin komandaları qərarlaşıblar.

Sonda qalib komandalar mükafatlandırılıb.

✍ **Ceyhun MƏMMƏDOV**


ŞƏRQ qapısı

Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 1.

Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Əli Cabbarov

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 1000. Sifariş № 999